# İkitərəfli münasibətlərin inkişafında parlamentlərarası əməkdaşlığın gələcək perspektivləri müzakirə olunub

## Milli Məclisin Sədri Sahibə Qafarova Malayziya Parlamenti Senatının Sədri ilə görüşüb

**Sentyabrın 19-da Milli Məclisin Sədri Sahibə Qafarova Malayziya Parlamenti Senatının Sədri Avanq Bemi Bin Avanq Ali Basah ilə görüşüb.**




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, ölkələrimiz və parlamentlərimiz arasındakı münasibətlərin mövcud səviyyəsindən məmnunluğunu bildirən Senatın Sədri, Azərbaycan parlamentinin spikerinin bu səfərinin ölkələrimiz arasında əlaqələrin inkişafına töhfə verəcəyinə inandığını qeyd edib. O, parlamentlərimizin AİPA kimi beynəlxalq parlamentlərarası əməkdaşlıq platformalarında birgə fəaliyyətini yüksək qiymətləndirib.

Milli Məclisin Sədri Sahibə Qafarova parlament diplomatiyasının əhəmiyyəti, parlamentarilərimizin beynəlxalq təşkilatlarda əməkdaşlığı, insanları narahat edən problemlərin həllində parlamentlərin rolu barədə fikirlərini bildirib.

Söhbət zamanı ikitərəfli münasibətlərin inkişafında parlamentlərarası əməkdaşlığın gələcək perspektivləri müzakirə olunub, beynəlxalq platformalarda əməkdaşlığın əhəmiyyəti vurğulanıb. Qanunverici orqanlarımızın həm ikitərəfli əsasda, həm də beynəlxalq parlament təşkilatlarında uğurlu əməkdaşlığından məmnunluq ifadə edilib.

Milli Məclisin spikeri Azərbaycanın son illərdə müxtəlif sahələrdə əldə etdiyi nailiyyətlər barədə söz açaraq, hazırda işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən nəhəng bərpa və quruculuq işləri barədə də məlumat verib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 20 sentyabr (№ 201).- S.2.